## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
## ELMİN İNKİŞAFI FONDU

Bakı şəhəri 11 avqust 2017-ci il

### Elmin İnkişafı Fondunun
### 8-ci "Mobillik qrantı" müsabiqəsinin
### (EİF-Mob-8-2017-4(30)) nəticələri haqqında

### E L A N

Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu (bundan sonra - Elmin İnkişafı Fondu) Azərbaycan Respublikasında təbiət, dəqiq, texniki, humanitar və ictimai elmlər sahəsində elmi-tədqiqat işləri ilə məşğul olan alimlərin elmi fəaliyyətini stimullaşdırmaq və onlara xaricdə elmi tədbirlərdə və qısamüddətli təcrübəkeçmədə iştirak, Azərbaycanda alınmış elmi nəticələrin tanıdılması, təcrübə mübadiləsi və yeni əlaqələrin qurulması imkanı yaratmaq məqsədilə keçirilmiş 8-ci "Mobillik qrantı" müsabiqəsinin (EİF-Mob-8-2017-4(30)) nəticələrini

ELAN EDİR:

1. Elmin İnkişafı Fondu 8-ci "Mobillik qrantı" müsabiqəsinin keçirilməsi haqqında qərarını 2017-ci il 14 iyun tarixində internet səhifəsində və kütləvi informasiya vasitələrində elan etmiş və qrant layihələrinin "on-line" şəkildə Fondun innovativ texnologiyası olan və ASAN imzanın inteqrasiya edildiyi "e-Qrant" - "Qrant layihələrinin elektron idarəolunması sistemi" vasitəsilə qəbulu üçün müddət olaraq 2017-ci il 16 iyun - 14 iyul tarixlərini müəyyənləşdirmişdir. Bu müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası qrant iddiaçılarına kömək məqsədilə məsləhət seminarları təşkil etmiş, telefon və elektron-poçt vasitəsilə olan müraciətlərə cavab vermiş, ortaya çıxan suallara aydınlıq gətirmişdir.
2. Yuxarıda göstərilən müddət ərzində müsabiqəyə 25 layihə daxil olmuş, bu layihələrin ekspertizası işi təşkil olunmuşdur.
3. Elmin İnkişafı Fondunun icraçı direksiyası, daimi və müstəqil elmi ekspertlər təqdim olunmuş layihələri ekspertiza qaydalarına uyğun olaraq qiymətləndirmiş, həmçinin maliyyələşdirilmənin məqsədəuyğunluğu və həcmi barədə Elmin İnkişafı Fondunun Himayədarlar Şurası üçün arayışlar hazırlamışdır.

4. Hər bir layihə üzrə hazırlanmış yekun sənədlər toplusuna Fondun Himayədarlar Şurası tərəfindən baxılmış, layihələr müzakirə olunmuş, yekun qəbul edilmiş və Himayədarlar Şurasının Protokolu ilə təsdiq edilmişdir.
5. 2017-ci ildə elan edilmiş 8-ci "Mobillik qrantı" müsabiqəsi üzrə ümumi maliyyələşdirilmə həcmi 92 min manat olan 17 qalib layihə (siyahı ayrıca şəkildə verilir) müəyyənləşdirilmiş və Elmin İnkişafı Fondunun Qərarı ilə təsdiq olunmuşdur.
6. Bu elan verildikdən sonra müəyyənləşdirilmiş müddət ərzində Elmin İnkişafı Fondunun icraçı direksiyası ilə qalib layihənin rəhbəri arasında layihənin yerinə yetirilməsi barədə lazımi sənədlər toplusu hazırlanmaqla müvafiq müqavilə bağlanılacaq və qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçiriləcəkdir.
7. Elmin İnkişafı Fondu 2017-ci ildə elan edilmiş 8-ci "Mobillik qrantı" müsabiqəsinin qaliblərini təbrik edir, müsabiqə iştirakçılarına və ekspertlərə minnətdarlığını bildirir.

Əlaqə telefonu: *(012) 489-08-94*
Elektron-poçt ünvanı:
*info@elmfondu.az*
**Elmin İnkişafı**
**Fondunun icraçı direksiyası**